**UOT:** 141.319.8.
**KBT:** 60.03
**MJ №** 132

# Qərb fəlsəfə tarixində ölüm problemi

**Fərəh Sadıqova***

**Abstrakt.** Məqalədə Qərbin fəlsəfə tarixində, yəni, antik dövr, Avropa xristianlığı, renessans, yeni dövr və sonrakı dövrlərin fəlsəfi təlimləri çərçivəsində ölümə münasibət tədqiq edilmişdir. Ölüm barədə düşüncələr, dövrlərə və hər dövrün paradiqmalarına görə dəyişir. Xüsusilə, Qərb mentalitetinin individualist olduğunu nəzərə alsaq bu fərqliliklər daha bariz şəkildə ortaya çıxır. Bu baxışlar arasında müəyyən fərqlər olsa da onları birləşdirən ümumi cəhətlər də çoxdur. Odur ki, məqalədə bu fərqləri və oxşarlıqları müqayisəli təhlil edilərək alınan nəticələr araşdırılmışdır.

**Açar sözlər:** ölüm, ölümün mənası, Qərb fəlsəfəsi, antik dövr, xristianlıq, yeni dövr

## 1.Giriş

Bütün elmlər, o cümlədən, tibb elmi insana bioloji varlıq kimi yanaşdığı üçün onların tədqiqat çərçivəsində ölüm və həyat məsələsi təbii prosesdir. Hər bir elm kimi fəlsəfə də ölüm fenomeninə müraciət edəndə insan varlığının sonlu olmasından çıxış edir. Əgər hər bir canlı üçün ölüm xarakterikdirsə onda o, insan üçün qeyri-təbii bir şey deyildir. Ölüm bioloji bir fenomen kimi təbii hadisədirsə mental bir fenomen kimi qeyri-təbiidir. Buna görə də ölümün subyektiv təcrübə vasitəsilə mental səviyyədə dərk olunması və mənasının axtarılması zərurətə çevirilir. Çünki, insan, başına gələn bədbəxt hadisələri təbii qəbul edə bilmir və ölüm ilə barışmaq istəmir. Bu, onun bioloji mövcudluqdan kənara çıxmaq təbii determinasiyanı aradan qaldırmaq və öz varlığının mənası ilə bağlı suallar vermək cəhdindən irəli gəlir.

Bədənin bioloji və fizioloji proseslərinin tamamilə dayanması ilə səciyyələnən ölüm fenomeni qeyri-müəyyənliyi baxımından daima mistisizmin və fəlsəfənin əsas mövzularından olmuşdur. Ölüm və ölümdən

* AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı; Bakı, Azərbaycan
E-mail: farah.jamalova@gmail.com
https://orcid.org/0000-0002-8958-3956

**Məqaləyə istinad:** Sadıqova, F. [2022]. Qərb fəlsəfə tarixində ölüm problemi. *“Metafizika” jurnalı, 5*(3), səh.68-85.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 09.05.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 28.07.2022*
*Çapa qəbul edilmişdir: 03.09.2022*

sonrakı həyat ilə bağlı düşüncə, inanc və fəlsəfələr mədəniyyətdən mədəniyyətə, dövrdən dövrə görə dəyişir. Ölüm, müəyyən mədəniyyət, inanc və fəlsəfələr müstəvisində fərqli mənalar kəsb edir. Antropoloqlar və filosoflar ölümün müxtəlif mədəniyyətlərdə təbii və ya qeyri-təbii qəbul edilməsi, insandakı fanilik şüurunun mənbəyinin təcrübəyə və ya fitrətə əsaslanması istiqamətində diskurslar aparmışlar. Etik baxımdan ölüm problemi son dərəcə mürəkkəb və çoxplanlıdır. Mədəniyyət və fəlsəfə tarixi bir insanın, ümumiyyətlə, ölümə münasibəti və xüsusilə, ölüm qorxusu probleminin müxtəlif həllərini verir. Bu problem, əslində, insanın mahiyyəti ilə bağlı fundamental dünyagörüşlü məsələlərdən birinə toxunur. Lakin, bu mövzu əksər elmlərin və fərqli dünyagörüşlərin əsas mövzusuna çevirilmişdir. Filosof İlham Məmmədzadə bildirir ki,

> “*Bir çoxları indi həyat və ölüm probleminin elmi və bioloji məsələ olduğuna, onun mənasının ömrün uzanmasında, orqanların bir-birini əvəz etməsində, klonlaşdırılmasında və digər məsələlərdə olduğuna əmindirlər. Bu yanaşmada böyük həqiqət payı vardır. Digərləri isə, problemin dini və ezoterik mənşəli olduğunu hesab edirlər.*” [18, s.4-5].

## 2.Antik fəlsəfədə ölüm məsələsi

Erkən yunan ənənəsində dirilmə ideyası əvəzinə, bədənin həyat mənbəyi hesab olunan ruhun ölülər diyarına getməsi və orada həyatını davam etdirdiyinə inanırdılar. Amma ölümündən sonrakı həyat barədə fikir müsbət deyildir. Antik mifologiya və fəlsəfəyə görə, insan taleyin qanunları ilə ölümə məhkum olunmuş fani varlıqdır. Ölüm, nəşəli dünya həyatına son qoyduğu və insanın ruhunu yeraltı qaranlıq və qüssəli Aid səltənətinə qərq etdiyi üçün şərdir. Ölümsüz olan yalnız tanrılar və tanrılaşmış qəhrəman insanlardır (Herakl kimi). Klassik yunan mədəniyyətində qəhrəmanlıq göstərərək erkən ölmək və yer üzündə uzun ömür üçün yaxşı bir ad qoymaq daha yaxşı idi [1, s.100]. Mistik inanclar və fəlsəfələrdə (orfizm, gnostisizm, hermetizm və neoplatonizm) insanın ölümündən sonra daha yaxşı bir həyat gözlədiyinə dair bir inam vardır.

Antik fəlsəfədə ölümün təbiəti naturfəlsəfi baxımdan izah olunur və ölüm qorxusuna etik münasibət bildirilirdi. Antik filosoflar insanları bu pessimizdən xilas etmək üçün ölümün deyil, ölümdən qorxmağın şər olduğunu sübut etməyə çalışırlar. Antik fəlsəfə və etikasının əsas hədəfi ölümə qarşı nifrət yaratmaqdır. Bu, ölümün metafizikasının zəif öyrənilməsi ilə bağlı idi.

Antik dövrün materialistləri ölümə daha skeptik yanaşırdılar. Demokrit hesab edirdi ki, “*ölüm və həyat nəfəs alıb vermə ilə məhdudlaşır. Nəfəs*

*bitdikdə canlı ölür.*” [13, s.55]. Epikur, ümumiyyətlə, ölümdən sonra hər şeyin bitdiyini irəli sürürək deyir:

“*Ən pis şey olan ölümün bizimlə heç bir əlaqəsi yoxdur; biz olanda ölüm hələ yoxdur, ölüm gələndə isə, biz artıq yoxuq.*” [7, s.123]

Çünki, Epikur bildirmək istəyirdi ki, ölümlə yalnız bədən deyil, ruh da atomlara parçalanaraq boşluqda yox olur, hisslər heçliyə qərq olur. Deməli, ölümdən sonra *Aid* səltənəti olmadığı və ölümlə həy şey bitdiyi üçün ölümdən qorxmaq ağılsızlıqdır.

Pifaqor üç növ varlığın olduğunu öyrədirdi: "fani insanlar", "ölməz tanrılar" və "Pifaqor kimi" varlıqlar. Pifaqorçular və daha sonra Platon söyləmişlər ki, hər bir insan qədim qəhrəmanlar kimi ölümə qalib gəlmək, ölməz olmaq, xüsusi həyat tərzi sürməklə "həyatını xoşbəxtliklə bitirə bilər". Müdriklərin (filosofların) həyatının məqsədi budur. Ölümsüzlük yolunda isə şücaətlər göstərmək lazımdır: tərkidünya olmaq, təbiəti, rəqəmləri və rəsmləri öyrənmək.

Ölüm qorxusunun aradan qaldırılması və onun yeni anlayışı istiqamətində ilk əməli addımı Sokrat atır. O, məhkəmədəki çıxışını bitirərək sualı belə qoyur: “*Ancaq sizə deyim: deyəsən, əslində, bütün bunlar mənim xeyrimə olub və ölüm şər ola bilməz, biz məsələni düzgün başa düşməliyik.*” [15, s. 95]. Sokrat sübut edir ki, ölüm doğrudan da bir nemətdir, ya da şirin əbədi yuxudur. O deyir:

“*Əgər ölüm belədirsə, mən də öz növbəmdə bunu qazanc hesab edirəm. Çünki belə məlum olur ki, bütün həyat bir gecədən yaxşı deyil.*” [15, s.95].

Sokrat qeyd edir ki, xeyirxah məhrumlar orada hikmət axtardıqları üçün öldürülmürlər. “*Çünki başqa şeylərlə yanaşı, oradakı insanlar Yerdəkilərdən fərqli olaraq daima ölməz olduqları üçün daha xeyirxahdırlar.*” [15, s.96].

“Sizi necə dəfn etmək olar?” - deyən Kritonunun sualına Sokrat belə cavab verir:

“*Sən daha məni deyil, yalnız bədənimi basdıracaqsan. Eynilə, ölən dosta yas tutanlar mərhumun və onun çəkdiyi əziyyətin yasını deyil, yalnız özlərinin yetim qaldıqlarına görə ağlayırlar.*”

Sokrata görə, ölüm bir sirr və bəlkə də yoxluğa bir keçiddir. Əgər ruh əbədidirsə, o zaman, ölüm şər yox, nemətdir. Ona görə, ölüm, həyatın mənasını (həqiqəti axtarmaq və ədalətin yorulmaz arzusu) öz həyatından üstün tutanlar üçün qorxulu deyildir. Buna görə də Sokrat deyir:

“*Gerçək olaraq fəlsəfəyə sadiq olanlar, əslində, yalnız bir işlə - yox olmaq və ölümlə məşğuldurlar.*” [14, s.14].

Platonu Sokratdan ayırmaq mümkün deyil. Ona görə, ölüm - bədənin həbsxanasından ölməz ruhun azad edilməsidir. Ölüm probleminə orfiklərin, pifaqorçuların, sonra isə Platonun münasibəti belə idi ki, ölümlə ölümsüz ruh ölümlü bədəndən ayrılır. Onlar hesab edirdilər ki, ölümdən sonra fəzilət və qünahları özündə birləşdirən ruh ilahi məhkəmə qarşısında dayanaraq hesabat verir. Günahkarlar, zülm etdikləri kəslər onları bağışlamadıqları təqdirdə, əbədi olaraq cəhənnəmə (Tartar) göndəriləcəklər. Adi insanların ruhları Aid səltənətində bir müddət qaldıqdan sonra digər bədənlərə köçürüləcəkdir. Antik mütəfəkkirlərə görə, ölüm qorxusu ağılın daha doğrusu, fəlsəfi düşüncənin köməyi ilə aradan qaldırıla bilər. Hikmət əhlinin ruhu əbədi olaraq ilahi ideyalar aləmindədir. Çünki, həyatı fəlsəfə olan şəxs maddi dünyada yaşasa da fikirləri ilə ideyalar aləmində mövcuddur və bu səbəbdən, bədəndən azad olandan sonra öz fikir aləminə qovuşur.

Platona görə, ömrünü xoşbəxtliklə başa vurmaq istəyən insan, yəni, ölməz olmaq və öz ilahi mahiyyətini təzahür etdirmək üçün bütün həyatı boyu öz üzərində işləməlidir. İnsan ezoterik varlıq olduğu üçün onun ilahi mahiyyəti öz üzərində işləməkdə, kamilləşməkdə, özünü ilahi aləmə aparan belə bir yola yönəltməkdə təzahür edir. İnsan, potensial tanrı, aşkar tanrı, ilahi dünyaya gedən yol və mənəvi bir fəaliyyət olduğu üçün ölüm mənfi bir şey deyildir. Onun müsbət olması, yuxu və ya cənnət ilə deyil, ruhani (ezoterik) insanın ölməz olması ilə bağlıdır. Ölməzliyə nail olmağa yönəlmiş mənəvi fəaliyyət mədəni fəaliyyətdir (fəlsəfə, elm, incəsənət). İnsan ilahiləşərək ölüm qorxusunu itirir, qarşısında sonsuz və ruhlandırıcı həyat perspektivi açılır, özünü təkmilləşdirərək ölməzliyə yiyələnir.

Seneka deyirdi:

> “*Ölümə nifrət et! Ölüm qorxusundan qurtulanların qəlbini narahat edən heçnə yoxdur.*” [19, s.154]. “*Ölümü düşün! - deyən kəs, azadlıq haqqında düşünməyə vadar edir. Ölümü tanıyan, köləlikdən xilas olmuşdur.*” [19, s.183].

Epiktet də buna oxşar düşüncədən çıxış edərək deyir:

> “*Mümkün olmayanı arzulayanda xoşbəxt ola bilməzsən. Mümkün olmayanı arzulayan quldur və ağası Allaha qarşı üsyankardır. Ağamız bizim xoşbəxt olmağımızı istəyir; lakin bunun üçün yadda saxlamalıyıq ki, doğulan hər şey ölməlidir.*” [16, s.217].

Seneka, stoiklər və əksər antik mütəfəkkirlərə görə, ölüm qorxusunu aşmaq əbədiyyətə qovuşdurur. Lakin, onlar ölüm problemini nəzəri və ekzistensial şəkildə həll edə bilməmişlər. Çünki, onlara görə, bunu yalnız ağıl vasitəsilə etmək mümkün hesab olunurdu [17, s.35-36].

Göründüyü kimi antik fəlsəfədə ölümə yanaşmalarda fərqliliklər olmuşdur. Stoisizmdə və xüsusilə, epikürçülükdə ölümə fərqli münasibət inkişaf edir. Sokrat insanı ölüm qorxusundan azad etməyə cəhd edirsə, stoiklər onun universallığına və təbiiliyinə işarə edirlər: dünyada hər şeyin sonu var və bu, o qədər təbiidir ki, ölümdən qorxmaq ağlabatan deyil. Platonçuluq və epikürçülük məzmunca bir-birinə zidd olsalar da onları ölüm faktına yanaşmanın özündə, varlığın əbədi bərabər kosmos kimi dərk edilməsi ilə bağlı olan xüsusi yunan rasionalizmi birləşdirir. Sonuncu ya Eleat məktəbində və ya Platonda olduğu kimi hərəkətsiz qalır, ya da daim təkrarlanan ritmdə dövri dəyişikliklər edir (Heraklit, Stoiklər). Buna görə də yunan fəlsəfəsi insana ölüm qarşısında dayaq axtarır, ya varlığın özü dövrünün əbədiliyində (ruhların köçməsi haqqında doktrina, metempsixoz), ya da bu dövrün ölümcül qaçılmazlığının şüurunda, onun təbii və dönməzliyinin təvazökar və ağlabatan qəbulunda israr edir.

**3.Xristianlıq dini və fəlsəfəsində ölüm məsələsi**

Xristianlıq dini və fəlsəfəsində ölüm və əbədiyyət mövzusu əsas mövzulardandır. Xristianlıq dininə görə, Tanrı Hz.Adəmi özü kimi ölümsüz yaratmışdır. Lakin, Hz.Adəm, xeyir və şəri bilmək ağacının qadağan olunmuş meyvəsindən daddığı üçün ilk dəfə günaha batmış və bunun nəticəsində cənnətdəki əbədiyyətini itirərək oradan qovulmuş, özü və soyu ölümə məhkum olunmuşdur. Burada ölüm, ilk dəfə mənəvi-əxlaqi amil (günah) kimi ortaya çıxır və fiziki ölüm onun nəticəsi kimi təqdim edilir. Ölümün əsas səbəbi, Hz.Adəmin iradə azadlığına, yəni şüura malik olması idi. Çünki, Tanrı əvvəlcədən ona yaratdığı bütün varlıqların adlarını öyrətmiş və beləliklə, o, şüuru əks etdirən dilə malik olmuşdur. Buradan belə çıxır ki, ona bu dil öyrədilməsəydi, şüur və ondan irəli gələn seçim olmayacaqdı və nəticədə ilk günah baş verməyəcək və Hz.Adəm əbədi olaraq cənnətdə yaşayacaqdı. Əgər yaradılış prosesi bu ssenari ilə davam etsəydi, o zaman Yer üzərində insanların seçiminə buraxılan, xeyir və şərin mübarizə meydanı olan dialektik tarix fenomeni olmayacaqdı. Lakin, bu ssenarinin baş verməsi mümkün deyildi. Çünki, Tanrı Bibliyanın digər ayələrində tarixin sona çatması, hamının ölüb yenidən dirilməsi, hesab gününün gəlməsi ilə bağlı Qiyamət ssenarisindən bəhs edir. Qiyamət ssenarisi ilə əbədi cənnət ssenarisi ziddiyyət təşkil etdiyinə görə Hz. Adəmin ilkin günaha batması hadisəsi ümumi bir ssenarinin ilkin zəruri mərhələsi idi. Bu ssenariyə görə insanlıq, xeyir və şərin mübarizəsinə açılan tarixin sınaq meydanında öz seçimi ilə ilkin əbədi səadət həyatına qovuşmalı və ya əbədi əzaba düçar olmalıdır. Dünyadan axirətə uzanan bu yol iki ölüm və üç diriliş vasitəsilə gerçəkləşir:

dünyadakı ölüm, Qiyamət-öncəsi diriliş və ölüm, Qiyamət-sonrası diriliş və əbədiyyət (Cənnət və ya cəhənnəmdə).

Xristianlıq dininə görə, İsa tanrı və tanrının oğlu kimi ölümdən xilas olub əbədiyyəti qazanmağın yolunu, öz dünyadakı həyatı ilə göstərmişdir. Ölüm günahla gələn bir fenomen olduğu üçün ondan qurtulmağın yolu günahdan qurtulmaqdan keçir. Günah əbədiyyətin itirilməsinə səbəb olduğu üçün onunla əbədiyyətə qovuşmaq qeyri-mümkün hesab edilir. Buna görə də ölüm, günah və dünya ilə bağlı olan şər anlayışdır. Xeyir öz günahlarına qalib gəlmək, paklaşmaq və əbədiyyətə qovuşmaqdır. Buna görə də ölmədən öncə mənəvi baxımdan ölmək, yəni günahlardan arınmaq, xeyirə çatmağın əsas yoludur [17, s.37-38].

Hər bir insanın ölümündən sonrakı taleyinin qeyri-müəyyənliyi səbəbindən ölüm xristianlıqda qorxu və ümid hissləri ilə əlaqəli əlçatmaz bir sirr kimi qəbul edilir. Xristianlıq ölümün qiymətləndirilməsində antik rasionalizmi aradan qaldırır və tamamilə xilas olmaq üçün irrasional inanclara əsaslanır. Ölümün ümumi qiymətləndirməsindən fərdi qiymətləndirmə mülahizələri irəli gəlir. Xristianlıqda ölümlə ruhun bədəndən ayrılmasına baxmayaraq bədən önəm daşıyır. Çünki, günaha batmadan əvvəl bədən ruh kimi ölməz idi. Günah ilk dəfə insanın ruhuna, sonra isə onun bədəninə zərər yetirdi. İkincisi, xristianlıq bədənin transformasiyasına əsaslanır. Xristian asketlərinin müqəddəs məqama çatması ilə bədənlərinin işıqlanması və çürüməməsi ilə bağlı inanc buradan irəli gəlir. Üçüncüsü, xristianlığa görə insanlar Qiyamət günündə öz əvvəlki bədənləri ilə qəbirlərindən dirildiləcəklər.

Alman mistiki M.Ekhart ölüm və sevgi münasibətlərini belə izah edirdi:

> *"...Heç bir şey ölüm kimi güclü olan sevgidən başqa insanın həyatının əsası və təbiətinin ayrılmaz hissəsi olan məncilliyi və bədxahlığı öldürə bilməz. Əks halda, bu xassələr öldürülə bilməz. Ona görə də, cəhənnəmdə olanlar bu kimi əzablara dözürlər. Onlar öz əzablarını düşünür və xilas olmağın yollarını axtarırlar. Lakin, onlara bu imkan heç vaxt verilə bilməz. Buna görə də, onlar, əbədi ölümlə ölmək istəsələr də, ölə bilmirlər. Çünki bədxahlıq sönmür və heç vaxt sönə də bilməz. Dünyada sevgidən başqa heç nə onlara kömək edə bilməz. Lakin, sevginin də onlara aidiyyəti yoxdur. Beləliklə, sevgi, bədən ölümündən və cəhənnəmə daxil olanlara yardım etməyən cəhənnəm ölümündən çox güclüdür. Sevgi ölümü, həqiqətən, arzu və bədxahlığı öldürən tək ölümdür.*" [16, s.152]

Tanınmış həkim və mitropolit Antoniy Surojski öz ölümünü dərketmə anını belə təsvir edir:

"*İnsan həyatı boyu özünü tanıyır, Mənliyini dərk edir və ona elə gəlir ki, artıq özündə kəşf edəcək heç nə yoxdur. Hər bir insanın baxmağa qorxduğu dərinliklər, hər insanda qorxduğu bir ixtilaf vardır. İnsan məhz bu gizli olanlarla qarşılaşmalıdır.*" [21]

Arximandrit Sofroniy öz ölüm təcrübəsini məna itkisi baxımından təsvir edərək bildirirdi: "*Mənim ölümüm, varlığımla bağlı olduğum və anladığım hər şeyin yoxa çıxması halını aldı... Mənim qaçılmaz ölümüm təkcə "biri az oldu" kimi sonsuz kiçik bir şey deyildi. Xeyr. Şüurumun ələ keçirdiyi hər şey məndə, mənimlə birlikdə ölür: yaxın insanlar, onların iztirabları və məhəbbəti, bütün tarixi tərəqqi, bütövlükdə bütün Yer kürəsi, Günəş, ulduzlar və sonsuz məkan; hətta, dünyanı Yaradanın özü də məndə ölür; hər şey, ümumilikdə Varlıq unudulmaq zülmətinə qərq olur.*" [24, s.44].

**4.Avropa fəlsəfəsi tarixində ölüm məsələsi**

İntibah dövründə ölüm ideallaşdırıldı. Leonardo Da Vinçi iddia edirdi ki, yaxşı keçirilmiş gündən sonra xoş yuxu gəldiyi kimi, yaxşı keçirilmiş həyatdan sonra xoşbəxt ölüm vaxtı gəlir. Ölüm xəstəliyi haqqında qərəzli fikir insanların zəifliyi ilə bağlıdır. Xoşbəxt bir insan ölüm düşüncəsindən ciddi əziyyət çəkə bilməz və ölüm məsələləri ilə dərindən maraqlanmaz. İntibah dövründə ölüm və xoşbəxt həyat məsələsi bu aspektdən dəyərləndirilməyə başladı. Bu əhval-ruhiyyə həm Yeni Dövr, həm də Maarifçilik dövründə davam etdi və fransız filosofu A. Kondors tərəfindən söylənən "*ölüm yalnız xəstəliklərdən deyil, hər cür iztirablardan xilas olmaq deməkdir*"- fikri, sonrakı dövrlər üçün aparıcı oldu [17, s.37].

İntibah dövründə başlanan və Maarifçilik dövründə dərinləşən dünyaviləşmə prosesi ilə birlikdə qismən antik fəlsəfəyə, xüsusən neoplatonizm və stoisizmə, qismən də okkult-magiya və qnostik-hermetik ənənəyə əsaslanan panteist dünyagörüşü (Q.K. Aqrippa, Paracelsus, J. Bruno) Spinozanın, Fixtenin, Hegelin, Hötenin və başqalarının təlimlərində dərinləşərək Tanrının transsendensiyasını və ölümün immanentdən transsendental dünyaya keçid olduğunu inkar edir. Maarifçiliklə əlaqələndirən panteizm ağırlıq mərkəzini imandan ağla tərəf yönləndirir. Spinozaya görə, "*Azad insanın ən az düşündüyü şey ölümdür. Onun müdrikliyi ölüm haqqında deyil, həyat haqqında düşünmək ilə səciyyələnir.*" [20, s.78].

Yeni dövrdə insan ölümü daha kəskin yaşayır və ondan qorxur. Həyatın dərk edilməsi və ölüm təcrübəsi təbiətcə fərqli olan iki antropoloji modeldə baş verir. "Yeni dövr Avropa şəxsiyyət modeli" çərçivəsində insan

həyatdan məhrum olmağı daha ağrılı qarşılayır. Yeni dövrdə insan həm də təbiət elmlərinin (biologiya, fiziologiya, psixologiya) obyekti kimi qəbul edildiyi üçün “təbii-elmi insan modeli” çərçivəsində dəyərləndirilir. İkinci modeldə ölüm tam məhrumiyyət, hətta yoxa çıxmadır. Yeni Dövrün şəxsiyyəti, qədim insanın şəxsiyyətindən əhəmiyyətli dərəcədə fərqlənir. Sonuncu həyatı və azadlığı ancaq tanrıların qurduğu dünya nizamı çərçivəsində dərk edirdi və onun ağlı, istəkləri bununla məhdudlaşırdı. Yeni Avropa şəxsiyyəti özünü dünyanın mərkəzi kimi dərk edir, həyatını və vəziyyətini yalnız özünə aid edir, ağlını və azadlığını yalnız özünə istiqamətləndirir və həyatını keçmişdən gələcəyə axın kimi görür və s. O, ölüm təcrübəsini əvvəlki insanlardan daha ağrılı hiss edir. Çünki, o, insanın təbiət-elmi modelini ehtiva edir və şərti-virtual mülahizələrlə yaşamağa meyllidir (internet, televiziya, kino, bədii ədəbiyyat, öz düşüncələri, fantaziyaları).

Yeni dövrün ilk filosoflarından olan Frensis Bekon yazırdı:

> “*Kiçik uşaqlar qaranlıqdan necə qorxurlarsa, insanlar da ölümdən elə qorxurlar. Uşaqlarda bu fitri qorxu nağıllar ilə gücləndiyi kimi, ölüm qorxusu da elə artır.*” [3, s. 132].

Bekon bu qorxudan xilas olmağın yolunu, təlaş və xurafatların aradan qaldırılmasında, öz varlığını təbiətin bir hissəsi olduğunun dərk edlməsində və insan yaradıcılığında görürdü. F.Bekon ilk dəfə bu günkü mənada işlənən "evtanaziya" terminini gətirərək yazırdı:

> “*... Mən tamamilə əminəm ki, həkimin vəzifəsi, xəstəliklərdən irəli gələn əzab və əzabları yüngülləşdirməkdir... Artıq qurtuluşa heç bir ümid olmadığı və yalnız ölümün daha asan və sakit olmasını təmin edə biləcək evtanaziya az xoşbəxtlik deyildir.*” [3, s.135].

Tomas Hobbs dolayı yolla evtanaziyaya işarə vuraraq bildirir ki, bəzi durumlarda ölüm xeyirə çevrilə bilər: “*Bütün şərlər arasında ölüm birinci yeri tutur, xüsusən də əzablı ölüm. Lakin, əzablar ondan da betərdir. Ölüm anı uzaq olduğu təqdirdə, onların insanın həyatına təsirləri o qədər güclü ola bilər ki, ölüm onlarla müqayisədə nemət kimi görünə bilər.*” [4, s.262].

R. Dekarta görə, ölüm qorxusu problemi təkcə dialektik cəhətdən ziddiyyətli deyil, həm də faciəlidir. O, yazır:

> “*Qorxu, ölümü, yalnız qaçmaqla xilas oluna bilən böyük şər kimi təqdim edir. Digər tərəfdən, şəxsi ləyaqət hissi bu rüsvayçı qaçışı, ölümdən betər şər kimi göstərir. Bu iki ehtiras iradəyə fərqli təsir edirlər. İradə, birinə və digərinə tabe olmaqla daima özüylə ziddiyyətə girir və nəticədə, ruhu kölələşdirərək bədbəxt edir.*” [6, s.89].

J.O. Lametriyə görə, ölüm öz təbiətinə nəzərən cəbrdə olan sıfırdır və ölüm qorxusunun mənbəyi cahillikdir:

> *“Ölüm yaxınlaşanda titrəmək- kabus və ruhlardan qorxan uşaqlar kimi olmaq deməkdir. Cəsurların əksəriyyəti onu itirəndə, yalnız filosof cəsarətini saxlayır.”* [10, s.420].

P. Golbax da hesab edirdi ki, ölüm qorxusu maarifçilikdən məhrum olan cahil şüura məxsusdur. O, yazır:

> “*Məgər ölüm, uzun və dərin yuxudan başqa bir şeydir? Ölüm qorxusu boş xəyaldır.*" [5, s.63].

İ.Kantın ölüm ilə bağlı toxunduğu məsələlər əsasən intiharın mənəvi yolverilməzliyi, ölüm cəzasına bəraət qazanma, həmçinin, "ölmək istəyən" ölümcül xəstəyə münasibət kimi məsələlərdən ibarətdir. Kanta görə, intihar əxlaqsızlıqdır. O yazır:

> *“Mənəviyyatın subyektini öz simasında məhv etmək, elə onun varlığında mənəviyyatın kökünü kəsmək kimidir. Çünki o, insandadır, axı şəxs özü-özlüyündə məqsəddir; özünü istənilən məqsəd üçün bir vasitə kimi idarə etmək - öz şəxsində bəşəriyyətin ləyaqətini məhv etmək deməkdir.*” [8, s.359].

Kant evtanaziya probleminə belə münasibət bildirir:

> “*Uzun illər yataqda ağır iztirablara məruz qalan xəstə daima onu iztirablardan qurtaracaq ölümü çağırırsa, ona inanmayın. Bu, onun həqiqi istəyi deyil.*” [9, s.300].

Alman filosofu Artur Şopenhauer budduzmin və induizmin reinkarnasiya inancına fəlsəfi alternativ olan palinqeneziya nəzəriyyəsini yaratdı. Şopenhauer metempsixozdan, yəni "bütöv ruhun başqa bədənə keçməsindən" danışmaqdan imtina edir və Parmenidin "varlığımızın məhv olmaması" ideyasına əsaslanaraq öz nəzəriyyəsini "palingeneziya" adlandırmağa üstünlük verir. Bu nəzəriyyəyə görə "fərdin parçalanması və yenidən törəməsindən sonra yalnız onun iradəsinin qaldığını, həmin iradənin yeni varlığın obrazını qəbul edərək yeni intellekt aldığını müdafiə edir. Şopenhauer, bədənin məhv edilməsindən sonra bütün xatirələri ilə fərdi "Mən"in qorunmasının mümkünlüyünü inkar etdi. Beynin məhv edilməsi şəxsiyyətin tam məhv edilməsi deməkdir. Digər tərəfdən, hər bir insanın unikal iradəsi məhv edilə bilməz. İnsanın iradəsi bədənin parçalanmasından sonra saxlanılır və vaxt keçdikcə bu iradə yeni bir intellektual bədənə çevirilir və yeni şəxsiyyət köhnədən tamamilə fərqli görünür.

Şopenhauer hesab edir ki, ən böyük qorxu olan ölüm qorxusu, həyata sonsuz bağlı olan idrakdan irəli gələ bilməz. Çünki, həyata güclü bağlılıq ağılsızlığın və cahilliyin əlamətidir. Əksinə, olaraq idrak həyatın

dəyərsizliyini və ölüm qorxusunun mənasızlğını bizə aşkar edir. İrrasional həyat iradəsi, ona zidd olan idrak ilə qarşı-qarşıya gələndə məğlub olur. Bu baxımdan, ölüm şər kimi deyil, xeyir kimi səciyyələndirilməlidir. Şüursuz heyvanlardan fərqli olaraq insan, idrak sahibi olduğu üçün dünyanın səadət məkanı deyil, əzab məkanı olduğunu dərk edir. Çünki, o, nə vaxtsa öləcəyini bildiyi üçün xoşbəxt ola bilmir. Heyvalar üçün həyat səadətdir. Çünki, onlar ölümü şüurlu şəkildə deyil, instinktiv şəkildə qəbul edirlər. Həyatın sonlu olduğunu və bunun qaçılmaz olduğunu anlayan ağıllı insan üçün əsas məqsəd xoşbəxtlik deyil, ölüm olmalıdır. Çünki, ölüm əzablı həyatın sonudur. Şopenhauer yazır:

> “*Ölüm - təbiətdən həyat iradəsi, daha dəqiq desək, ona məxsus olan təkəbbürü əxz edən böyük dərsdir. Ona, bizim varlığımızın cəzası kimi də baxmaq olar. Ölüm- insanın dünyaya gəlişi ilə bağlanan xoş düyünü əzabla açan, insan varlığı ilə bağlı əsas səhvi kənardan nüfuz edrək zorla dağıdan böyük məyusluqdur.*” [23, s.233]

Şopenhauer palinqeneziyanın mümkün tənqidinə cavab olaraq belə yazır:

> “*...Bu alınmasa, utancaq ürək yenə öz köhnə şikayət mahnısını oxuyacaqdır: "doğuşla bütün canlıların heç bir şeydən yarandığını və qısa bir müddət sonra yenidən heç bir şeyə döndüyünü görürəm. Mənim varlığım indi burdadır, tezliklə uzaq keçmişə qərq olacaq və mən heç bir şey olacam!" Bu şikayətə doğru cavab belə olacaq: "Məgər sən mövcud deyilsən? Bəyən zamanın uşaqları olan sizlər onda, görməmiş kimi cəhd etdiyiniz qiymətli indiki zamanda yaşamırsınız? Bəyəm o, səninki deyil? Həqiqətənmi o səninkidir? Məgər sən, ona necə çatdığını bilirsən? Bəyəm səni ona yönəldən yollar sənə məlumdur? Bəlkə sənə anlatmaq üçündür ki, ölüm, sənin üçün o yolları qapayacaqdır? Bədənin məhv olandan sonra, sənin “mən”inin mövcudluğu sənin tərəfindən dərkolunmazdır. Bəyəm o, sənə dərk etdiyin indiki mövcudluğundan daha da dərkolunmazdır? Nəyə görə sən, indiki üçün önündə açılan yolların gələcəkdə və sonra sənin üçün açılmayacağına şübhə edirsən?*” [23, s.239]

XX əsrin fəlsəfəsində insanı həyatın mənası üfüqündə hesab etmək meyli var idi. Beləliklə, ekzistensial fəlsəfə “düşünürəm” təfəkkürünün Dekart paradiqmasını Haydeggerin *“Mən öləcəyəm”* ifadəsi ilə əvəz edərək ölüm ideyasını insanın üzvi bir bədən kimi mövcudluğunun qaçılmaz sonu baxımından deyil, onun həyat üçün mənası haqqında zənn baxımından inkişaf etdirməyə başladı. Ekzistensialistlər həyatın mənası metafizikasının əsasını qoymuş, insan varlığına dair bütün düşüncələrin mərkəzində “məna” məfhumunu göstərmiş, həmçinin ölümü məna baxımından nəzərdən

keçirərək onu insan həyatının mənası ilə əlaqələndirmişlər. İnsanın öz ölümünün qaçılmazlığını dərk etməsini həqiqi varlığın meyarı hesab edirdilər. Eynilə, psixoloqlar öz ölümünü dərk etməyi psixi cəhətdən sağlam insanın əlaməti hesab edirlər.

Ölümü insan şüurunun və ümumən insan həyatının ən mühüm qurucu məqamı hesab edən XX əsr filosofları arasında M.Şeleri və Haydeggeri xüsusi qeyd etmək lazımdır. Şeler fenomenologiya metodunu tətbiq edərək şüurun immanent dünyasında "transsendensiya"nı necə yaşandığını göstərməyə çalışmış və insanın faniliyi, sonlu olması onun nəzəri təfəkkürünün və fəaliyyətinin bütün strukturunu müəyyən edir. İnsan şüurunu təşkil edən an kimi Şeler ölümün empirik faktını deyil, onun insan həyatı boyu təcrübəsini götürür. Şelerə görə, yalnız ölüm qarşısında varlığa qayıtmaqla, saxta məqsədlərdən və sənaye sivilizasiyasının həyatını doldurduğu fəaliyyətlərdən qurtularaq həyatın mənasını əldə etmək olar.

Haydeggerin ölüm qarşısında "əsil" mövcudluq haqqındakı təlimində bildirilir ki, ölümün idrakından məhrum olan cəmiyyətdə insan öz "Mən"inin olmadığı saxta bir aləmə qərq olub ölümsüzlük xəyalına qapılaraq varlığının son imkanı olan ölümü unudur. Haydegger insan şəxsiyyətini transsendental Tanrıda kökləyən Şelerdən uzaqlaşır. Heideggerə görə dünyada "tərk edilmiş" insan ölüm qarşısında son dərəcə tənhadır. Heideggerin kitabının "lirik qəhrəmanı" olan Dasein (hərfi mənada "burada-varlıq") həqiqətən burada və indi var olduğuna təəccüblənməyi bacaran, burada olması ilə bağlı sual verə bilənin biridir. Öz növbəsində, Daseinin yaşadığı və fəaliyyət göstərdiyi dünya başqaları ilə paylaşıla bilən yaşanmış və məna dünyasıdır. Heideggerə görə, insanın öz ölümünü və onun həyəcanını yaşaması, subyektin subyektivləşməsinə doğru ilk addımdır. Buna görə də o, müsbət məna daşıyır. Heidegger bildirir ki, "*mən fani olduğum üçün, məntiq dərsliyində olan Kay olmadığımı, küçədən gələn bir adam olmadığımı, hamı kimi bir insan olduğumu kəşf edirəm. Mən ölməkdən qorxub həyəcanlananda, bu qorxunun özü mənə öz unikallığımı hiss etdirir. Mən Piza qülləsi və ya Müqəddəs Bazil Katedrali kimi tək bir nüsxədə var olduğumu anlayıram. Deməli, son xatirələr və təcrübələr zənginliyi ilə öz mənliyimi, daxili dünyamı dönməz şəkildə məhv etmək, bütün kainatın ölümü deməkdir*." [22, s.267].

Haydeggerə görə, mənim ölümüm, məni qarşıda gözləyən, mənə müəyyən şəkildə çağırış edən və nəticədə, məni özüylə üz-üzə gətirən sirli həmsöhbətdir. Ona tərəf tələsib çağırışına yönəldikcə həyatdan kənarlaşıram. Ölümdə mən özümü "ümumiyyətlə insan" (seçicilərin nümayəndəsi, istehlakçı, yaxşı ailə başçısı) kimi yox, yeganə və tək olan "gerçək çılpaq" kimi görürəm. Özümün bütün zəiflik və kövrəkliyimdə "bu mənəm"

reallığım, mənə dünyaya tamam başqa bucaqdan baxmağa imkan verir. Haydeggerin dili ilə desək, ölüm mənim varlığımı “açır”. Ölümüm - ondan üz döndərməsəm və ölümü gözləməklə bağlı təşvişi cəsarətlə qəbul etsəm, məni təkcə ölümə deyil, həyata da baxışım dərinləşəcəkdir. Bu baxış, tam tənhalıq bahasına əldə edilir. Ölümdəki bu tənhalıq həm subyektivləşməyə görə ödənilən qiymət, həm də onun zəruri şərtidir. İnsan ancaq öz zahidliyini tənhalıq və qorxu ilə etməklə özünə çevirilə bilər. Bunu, başqası üçün hətta onunla birlikdə etmək mümkün deyil [22, s.272].

Levinas hesab edir ki, özgəsinin ölümü, doğrudan da bir “oyanış” olmalıdır. Lakin, bu məsuliyyət və mənanın oyanışıdır. Üstəlik, bu məna mahiyyət etibarı ilə ölümün mənasızlığı ilə bağlıdır. Başqasının ölümünün heç bir mənası, haqlı əsası olmadığı üçün mən ona hər bir vəchlə müqavimət göstərməliyəm. Levinasa görə, mənim işim başqalarının ölümünə görə məsuliyyət daşımaqdır və bu iş, olmaq işindən əvvəl gəlir. Başqasının heç vaxt ölməyəcəyinə əmin ola bilməsəm də bu ölümü təxirə salmaq, onun tək ölməsinin qarşısını almaq üçün hər şeyi edə bilərəm. Başqasının ölümü bütün məzlum mənasızlığı ilə bir növ travma (zədə) kimi şüurumun çərçivəsinə sığmayan bir şey kimi qəbul edilə bilər. Bu, mənim şüurum üçün çərçivə yaratsa da özüm üçün yox, başqası üçün var olduğum dərəcədə mənim varlığım üçün mənalıdır. Levinasa görə, ölümün bu şəkildə dərk olunması əsas götürülməlidir. O, yazır:

> “*Üz-üzə dayandığım ölüm öz ifadəsi ilə məni çağırır, tələb və məcbur edir. Sanki digərinin üzünü çevirdiyi o görünməz ölüm, hər hansı ümumilikdən müəyyən mənada ayrılmış saf qeyri-müəyyənlik kimi mənim əsas işimə çevrilir. Sanki o başqasına məlum olmayan, artıq sifətinin çılpaqlığında parıldayan ölüm, ölümə çevirilməmişdən və mənə gəlməzdən əvvəl şəxsən mənə yaxınlaşır. Başqasının ölümü məndə özümü şübhə altına alır - sanki biganəliyim məni o birinin gözəgörünməz şəkildə üzləşdiyi o ölümün şərikinə çevirir. Sanki özümü başqasının xidmətinə həsr etməmişdən əvvəl də, başqasının ölümünə, onu tək qoymadığıma görə məsuliyyət daşımalıyam.*” [11, s.233].

Postmodernist Jan Baudrilyar yazır:

> “*Ölümdən imtina- bizim bütün istiqamətlərdə inkişaf edən fantaziyamızdır: bu dinlərdə axirət və əbədiyyət fantaziyası, elmdə həqiqət, iqtisadiyyatda məhsuldarlıq və akkumulyasiya fantaziyamızdır.*” [2, s.229]

Azərbaycan filosofu İ. Məmmədzadə Azərbaycanda bioetikanın inkişafının önəminə vurğu edərək bildirir ki, “*Ali dəyəri həyat olan bioetikanın nüvə mərkəzi alim və insan arasındakı dialoqdur... Biz düşünürük ki, bu gün*

*azərbaycan bioetikasının vəzifəsi əsas dəyər müddəalarını (aksiomları) formalaşdırmaqdır. Biz, bu aksiomaları təklif edirik: 1. Alim, elmi-tədqiqi və humanist dəyərlərin vəhdətinə səy göstərməlidir. 2. Humanist məqsədlər, araşdırma məqsədlərindən üstün tutulmalıdır. 3. İnsan hüquqlarını pozmamaq üçün, bu istiqamətdə aparılan araşdırmalara və çıxarılan qərarlara qadağa qoyulmalıdır (müvəqqəti)."* [12, s.145-146].

Cəmiyyətdə mövcud olan bütün müxtəlif dəfn mərasimlərinə baxmayaraq onların bir ümumi məqsədi, canlı və cansızı ayırd edərək varlığının sabitliyini hiss etməkdən ibarətdir. Təbabətin getdikcə yüksələn səviyyəsi ilə dəstəklənən müasir mədəniyyətin bədənə pərəstişkarlığı və ömrün uzadılması üzərində qurulması, insanın ölümü öz varlığının mümkün halı kimi qəbul etməsini əngəlləyir. O, təkcə bundan qorxmur, əksinə, onun bədən varlığına müdaxilə edən, planlarını və həyat tərzini pozan bir şey kimi onu varlığından silməyə çalışır. Müasir cəmiyyətdə əsasən, tibbin inkişafı ilə əlaqədar olaraq ölüm fiziki ağrı ilə qorxutmağı dayandırır, ömür müddəti artır. Belə bir planlaşdırma sistemində insan şansdan qaçaraq hər şeyi öz əlinə almağa, o cümlədən, ölümü həyatından zorla çıxarmağa, dərman vasitəsilə onu özündən uzaqlaşdırmağa və təcrid etməyə çalışır. Özünü mümkün olduğu qədər başqasının ölümünü düşünmək ehtiyacından kənarlaşdırır. Dəfn mərasimlərinin sadələşdirilməsi, onların xüsusi xidmət orqanlarının yurisdiksiyasına verilməsi, mədəni bir hadisə kimi ölümün ictimai şüur sahəsindən necə sıxışdırıldığının bariz nümunəsidir. Bəşəriyyət getdikcə ölümün yoxmuş kimi göründüyü, rahatlığın üstünlük təşkil etməsinin ölümün mənası və onun insan varlığı kontekstinə daxil edilməsi məsələsinə imkan vermədiyi bir məkana qərq olur. Belə cəmiyyətlərdə ölüm xoşbəxtlik axtarışını təhdid edən ən böyük anlaşılmazlıq olaraq həkimlərə təslim edilir. Ölümün bu cür unudulması insana öz həyatı, daha nə etmək lazım olduğu barədə düşünməyə imkan vermir. Çünki, indi onun bütün varlığını müşayiət edən əsas qayğı ömrün uzadılması, varlığının müddətinin artmasıdır. Onların özlərində daşıdıqları məna deyil, zahiri rəmzlər insan üçün son dərəcə vacib olur.

**5.Nəticə**

Ölüm təcrübəsi və bu təcrübəyə əsaslanan bu və ya digər ölüm fəlsəfəsi insanın daxili gerçəkliyinin və metafizik keyfiyyətinin ilkin meyarıdır. Şərq və Qərb xalqlarının mədəniyyət tarixində mövcud olan ölüm kultu, onun estetik formaları, ölüm barədə fəlsəfi düşüncələr ölümün əslində nə olduğunu başa düşməyə dəlalət etmir. Çünki, onun əsil mahiyyəti bəzi dəhşətli rəmzlərin arxasında gizlənir. Neo-spiritualist reenkarnasiya nəzəriyyəsi ilə qədim yunanların və hinduların ənənəvi təlimləri bir səthi

oxşar xüsusiyyətlə əlaqəlidir. Onları birləşdirən ümumi cəhət odur ki, onlarda ölüm fəlsəfəsi yoxdur. İstər metampsixoz, istərsə də transmiqrasiya ölümü bir vəziyyətdən digərinə keçid anı kimi dəyərləndirir. Neospiritualistik reenkarnasiya da eyni mövcudluq müstəvisinə daimi qayıdışı dəstəkləyir. Hər iki halda real olan təzahür anı və həyatdır. Onlar üçün ölüm yalnız eyni varlığın təzahürləri arasında boş bir fasilədir. Onların fərqi ondadır ki, neospiritualistlər öz mənəvi irsi ilə müharibə edən profanlar kimi xristianlıq vasitəsilə qərb insanına açılmış əsil ölüm ideyasını aradan qaldırmağa çalışırlar, ikincilər isə (yunanlar, hindular) ümumiyyətlə ölüm barədə danışmaqdan çəkinirlər. Onlarda transobyektiv reallıq olan və özünü real ölümdə ifadə edən Subyekt yoxdur.

**ƏDƏBİYYAT**

1. Bremmer, J.N. (1994). "The Soul, Death and the Afterlife in Early and Classical Greece" (M. Bremer, P.J. Peters), *Hidden Futures*. Amsterdam University Press. pp.91-106.
2. Бодрийяр, Ж. (2000). *Символический обмен и смерть*. **[**http://yanko.lib.ru/books/philosoph/baudrillard-symv-obmen-i-smert.htm**]** М.: Добросвет 387 с.
3. Бэкон, Ф. (1972*). Опыты или наставления нравственные или политические. Сочинения в двух томах.* (Т. 2). (Сост., общая ред. и вст. статья А. Л. Субботина). М.: «Мысль», 582 с.
4. Гоббс, Т. (1989). *О гражданине. Избранные произведения. Сочинения в 2 т.* (Т. 1) (Пер. с лат. и англ.; Сост., ред. изд., авт. вступ. ст. и примеч. В. В. Соколов). М.: Мысль, 622 с.
5. Гольбах, П.А. (1963). *Система природы, или О законах мира физического и мира духовного. Избранные произведения. В 2 т.* (т.1) М.: Мысль, 270 с.
6. Декарт, Р. (1989). *Страсти души. Сочинения. В 2 т.* (т.1). М.: Наука, 504 с.
7. Диоген, Л. (1979). *О жизни, учениях и изречениях знаменитых философов.* М.: 433 с.
8. Кант, И. (1965). *Метафизика нравов в двух частях. Сочинения. В 6 т.* (т.4, ч.2,). М.: Мысль, 478 с.
9. Кант, И. (1980). *О способности духа силою только воли побеждать болезненные ощущения. Трактаты и письма.* М.: Мысль, 711 с.
10. Ламетри, Ж.О. (1983). *Система Эпикура. Сочинения.* М.: Мысль, 511 с.

11. Левинас, Э. (2000). *Избранное. Тотальность и Бесконечное.* [https://avidreaders.ru/read-book/totalnost-i-beskonechnoe.html] СПб.: 416 с
12. Мамед-заде, И.Р. (2005). *Введение в этику.* Баку: Муаллим нешр. 160 с.
13. *Материалисты Древней Греции. Собрание текстов Гераклита, Демокрита и Эпикура.* (1955). (Под ред. М.А.Дынник. М., Политиздат). 238 с
14. Платон. (1993). *Федон* (Собр. соч.: В 4 т. Т. 2.). (Общ. ред. А.Ф. Лосева, В.Ф. Асмуса, А.А. Тахо-Годи; Примеч. А.Ф. Лосева и А.А. Тахо-Годи); (Пер. с древнегреч). М.: Мысль, 528 с.
15. Платон. (1968). *Апология Сократа. Сочинения. В 3 т.* (т.1). (Под общ. ред. А.Ф. Лосева и В.Ф. Асмуса). М.: Мысль, 623 с.
16. *Римские стоики. Сенека, Эпиктет, Марк Аврелий.* (1995). [https://dokumen.pub/5-250-02462-9.html] М.: 465 с.
17. Сабиров, В.Ш. (2000). Жизнь. смерть. бессмертие (Обзор основных религиозно-философских парадигм) [http://www.sibstrin.ru/files/zhizn_smert_bessmertie.pdf] *Человек* №5-6, с.32-40.
18. Севиндж Мамед Сулейман (2010). *В поисках смысла жизни,* Баку, издательство «Тэбиб», 284с.
19. Сенека, Л.А. (1977). *Нравственные письма к Луцинию.* [http://psylib.org.ua/books/senek03/index.htm] М.: Наука
20. Спиноза. (1957). *Избр. соч.* М.: Мысль,. 806 с
21. Сурожский, А. (2019). *Человек перед Богом.* [http://www.mitras.ru/pered2/pb_212.htm] Фонд "Духовное Наследие"
22. Хайдеггер, М. (2003). *Бытие и время.* [http://yanko.lib.ru/books/philosoph/haydegger-butie_i_vremya-8l.pdf] (Пер. с нем. В.В. Бибихина). Харьков: Фолио, 503 с.
23. Шопенгауэр А. (1992). *Собрание сочинений в пяти томах. Мир как воля и представление. Критика кантовской философии (приложение)* (Перевод Ю.И. Айхенвальда под редакцией Ю.Н. Попова). М.: Московский клуб, 446 с.
24. Ямпольская, А. (2018). *В.Искусство феноменологии* М.: РИПОЛ классик, 342 с.

## Проблема смерти в истории западной философии

**Фарах Садыгова***

**Абстракт.** В статье изучено отношение к смерти в истории западной философии, т.е. в рамках философских учений античности, европейского христианства, возрождения, нового времени и позже. Мысли о смерти различаются в зависимости от парадигм каждой эпохи. В частности, учитывая индивидуалистический характер западного менталитета эти различия становятся более очевидными. Несмотря на некоторые различия между этими взглядами есть много общего. В статье мы попытались выявить эти различия и сходства посредством сравнительного анализа.

**Ключевые слова**: смерть, смысл смерти, западная философия, античный период, христианство, новое время

## The problem of death in the history of Western philosophy

**Farah Sadygova***

**Abstract.** The article studies the attitude to death in the history of Western philosophy, ie. within the framework of philosophical teachings of Antiquity, European Christianity, Renaissance, New Age and later. Thoughts about death differ in the dependence on the paradigm of each epoch. In particular, taking into account the individualistic character of the Western mentality, these differences become more obvious. Ignoring some of the differences between these looks, there is a lot in common that unites them. In the article we tried to find these differences and similarities by means of comparative analysis.

* Диссертант Института Философии и Социологии НАНА; Баку, Азербайджан
E-mail: farah.jamalova@gmail.com
https://orcid.org/0000-0002-8958-3956
**Цитировать статью:** Садыгова, Ф. [2022]. Проблема смерти в истории западной философии. *Журнал «Metafizika», 5*(3), c.68-85.

***История статьи:***
*Статья поступила в редакцию: 09.05.2022*
*Отправлена на доработку: 28.07.2022*
*Принята для печати: 03.09.2022*

* Ph.D student of the Institute of Philosophy and Sociology of ANAS; Baku, Azerbaijan
E-mail: farah.jamalova@gmail.com
https://orcid.org/0000-0002-8958-3956
**To cite this article:** Sadygova, F. [2022]. The problem of death in the history of Western philosophy. *“Metafizika” journal, 5*(3), pp.68-85.

***Article history:***
*Received: 09.05.2022*
*Accepted: 03.09.2022*

**Keywords:** death, meaning of death, Western philosophy, Ancient period, Christianity, New Time

**REFERENCES**

1. Bremmer, J.N. (1994). The Soul, Death and the Afterlife in Early and Classical Greece (M. Bremer, P.J. Peters), *Hidden Futures*. Amsterdam University Press. pp.91-106. (in English)
2. Bodriyyar, J. (2000). *Symbolic exchange and death.* **[**http://yanko.lib.ru/books/philosoph/baudrillard-symv-obmen-i-smert.htm**]** Moscow: Dobrosvet. 387 p. (in Russian)
3. Bekon, F. (1972). *Experiments or instructions, moral or political. Works in two volumes.* (Vol.2). (ed. by A. L. Subbotin) .Moscow: Mysl′. 582 p. (in Russian)
4. Gobbs, T. (1989). *About the citizen. Selected works. Works in 2 vols.* (vol.1). (Trans. from lat. and English); (ed. Sokolov V.V.). Moscow: Mysl′, 622 p. (in Russian)
5. Gol′bakh, P.A. (1963). *The system of nature, or On the laws of the physical world and the spiritual world. Selected works. In 2 vol.*(vol.1) Moscow: Mysl′, 270 p. (in Russian)
6. Dekart, R. (1989). *Passions of the soul. Works. In 2 vol.* (vol.1) Moscow: Nauka, 504 p. (in Russian)
7. Diogen, L. (1979). *About the life, teachings and sayings of famous philosophers.* Moscow. 433 p. (in Russian)
8. Kant, I. (1965). *Metaphysics of morals in two parts. Works. In 6 vol.* (vol.4, part 2). Moscow: Mysl′, 478 p. (in Russian)
9. Kant, I. (1980). *On the ability of the spirit to overcome painful sensations by the power of only the will. Treatises and letters.* Moscow: Mysl′, 711 p. (in Russian)
10. Lametri, Zh.O. (1983). *Epicurus system. Works.* Moscow: Mysl′, 511 p. (in Russian)
11. Levinas, E. (2000). *Favorites. Totality and the Infinite.* [https://avidreaders.ru/read-book/totalnost-i-beskonechnoe.html] SPb. 416 p. (in Russian)
12. Mamed-zade, I.R. (2005). *Introduction to ethics.* Baku. Muallim neshr. 160 p. (in Russian)
13. *Materialists of Ancient Greece. Collection of texts by Heraclitus, Democritus and Epicurus.* (1955). (Ed. By Dynnik, M.A. & Politizdat). M. 238 p. (in Russian)
14. Platon. *Phaedo.* (1993). (Collection. cit.: In 4 volumes. (vol. 2.) (General. ed. Losev, A.F., Asmus, V.F., & Takho-Godi A.A.); Note. A.F. Loseva

and A.A. Takho-Godi); (Trans. from ancient Greek) M.: Mysl′. 528 p. (in Russian)
15. Platon. (1968). *Apology of Socrates. Works. In 3 tons.* (vol.1). (ed. Losev, A.F., & Asmus, V.F.). M., Mysl′, 623 p. (in Russian)
16. *Roman Stoics. Seneca, Epictetus, Marcus Aurelius.* (1995). [https://dokumen.pub/5-250-02462-9.html] M., 465 p. (in Russian)
17. Sabirov, V.SH. (2000). *Life. death. immortality (Review of the main religious and philosophical paradigms)* [http://www.sibstrin.ru/files/zhizn_smert_bessmertie.pdf] *Chelovek.*vol.5-6, pp. 32-40. (in Russian)
18. Sevindzh Mamed Suleyman. (2010). *In search of the meaning of life*, Baku, Tebib. 284 p. (in Russian)
19. Seneka, L.A. (1977). *Moral letters to Lucinius.* [http://psylib.org.ua/books/senek03/index.htm] M., «Nauka» (in Russian)
20. *Spinoza*.( 1957). Fav. op. M.: Mysl′, 806 p. (in Russian)
21. Surozhskiy, A. (2019). *Man before God.* [http://www.mitras.ru/pered2/pb_212.htm] Fond Dukhovnoye Naslediye (in Russian)
22. Heidegger, M. (2003). *Being and time* [http://yanko.lib.ru/books/philosoph/haydegger-butie_i_vremya-8l.pdf] (Trans. from german Bibikhina, V.V.). Khar′kov: Folio,503 p. (in Russian)
23. Shopengauer A. (1992). *Collected works in five volumes. The world as will and representation. Criticism of Kantian philosophy* (appendix) (Trans. by Aikhenvald, Yu.I.; ed. by Popov, Yu.N.). M.: Moskovskiy klub, 446 p. (in Russian)
24. Yampol′skaya, A. (2018). *Art of phenomenology*. M.: RIPOL klassik, 342p. (in Russian)